BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Ermənistanda gedən seçki mübarizəsinin mart ayı üçün təhlili

Fuad Abdullayev

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

APREL 2026

## Ermənistanda gedən seçki mübarizəsinin mart ayı üçün təhlili

### Giriş

Mart ayında Ermənistanın daxili ictimai-siyasi həyatında parlament seçkilərinə hazırlıq prosesi əvvəlki aylarla müqayisədə kifayət qədər qızğın və rəqabətli bir mərhələyə qədəm qoydu. Xüsusilə də, “Ermənistan” və “Güclü Ermənistan” kimi iri siyasi blokların aktivliyi nəzərəçarpacaq dərəcədə artdı. Bu siyasi qüvvələr hazırkı hakimiyyətin həm daxili, həm də xarici siyasətində, xüsusilə milli təhlükəsizlik sahəsində mövcud olan çatışmazlıqları davamlı şəkildə ictimaiyyətin diqqətinə çatdıraraq öz platformalarını təqdim etdilər. Bu səbəbdən, Baş nazir Nikol Paşinyan mayın 28-də hərbi paradın keçiriləcəyini bəyan edib. Proseslərin gedişatı göstərir ki, seçki yarışına digər kiçik partiyalar da ardıcıl şəkildə qoşulur. Təbii ki, bu fəaliyyətin qarşısında hakim partiya da geri qalmayıb, həm əlində olan geniş administrativ resurslardan istifadə edib, həm də öz siyasi təbliğatını fəallaşdırmağa çalışıb.

### Müxalif qüvvələrin fəaliyyəti

Müxalifət cəbhəsində “Ermənistan” bloku mart ayında ön plana çıxmışdır. Belə ki, mart ayının 16-da keçirilən irimiqyaslı tədbir zamanı keçmiş prezident Robert Köçəryan növbəti dəfə siyasi blokun vahid namizədi kimi rəsmən irəli sürüldü. R.Köçəryan öz çıxışında hakimiyyətə qarşı olduqca kəskin ittihamlar səsləndirərək onu dəyişənə qədər mübarizəni dayandırmayacağını və onlara rahatlıq verməyəcəyini bəyan etdi. O, hazırkı iqtidarı minlərlə insanın ölümündə, ordunun məhv edilməsində və xüsusilə Qarabağın “təhvil” verilməsində birbaşa günahlandıraraq Ermənistanın yalnız döyüşə hazır bir orduya, qətiyyətli və güclü bir liderə, həmçinin xarici arenada güclü bir müttəfiqə ehtiyacı olduğunu vurğuladı. Bu tədbir zamanı siyasi blokun “Birlikdə bacararıq” kimi kütləni səfərbəredici şüarı irəli sürüldü.[1] Bununla yanaşı, sözügedən tədbirə müəyyən ictimai dəstəyin olduğu müşahidə olunub. Bu dəstək xüsusilə də ləğv edilmiş qondarma rejimin keçmiş nümayəndələri, Daşnaksütyunun kəskin radikal baxışlı üzvləri, bəzi ictimai fəallar, I Qarabağ müharibəsi iştirakçıları və cəmiyyətin müəyyən radikal düşüncəli təbəqəsinin nümayəndələri arasında özünü göstərib.

Bu tədbirin ardınca Robert Köçəryan regionlara səfərlər etdi. Qeyd edək ki, görüşlərin keçirildiyi məkanların əhali tərəfindən doldurulduğu müşahidə olunmuşdur.[2] Görüşlərdə Qarabağ ermənilərinin geri qayıtması kimi emosional və siyasi həssas

---

[1] “Şər hökumət məğlub olacaq: hökumət sirk deyil, baş nazir isə təlxəkdir: Robert Köçəryan” (Չարիքի իշխանությունը պարտվելու է. կառավարությունը կրկես չէ, վարչապետն էլ՝ ծաղրածու. Ռոբերտ Քոչարյան), 168.am, https://www.youtube.com/watch?v=PToxW6JsEjw 16.03.2026 (baxılıb: 17 mart 2026-cı il)

[2] “Robert Köçəryan komandası ilə birlikdə Aştarakda vətəndaşlarla görüşür” Ուղիղ I Ռոբերտ Քոչարյանը թիմի հետ Աշտարակում հանդիպում է քաղաքացիների հետ), Yerkir Media - News, https://www.youtube.com/watch?v=3bCTkNkK_Dc 21.03.2026 (baxılıb: 25 mart 2026-cı il)
““Ermənistan” bloku. Vətəndaşlarla görüş: Hrazdan” (“Հայաստան” դաշինք | Հանդիպում քաղաքացիների հետ. Հրազդան), Yerkir Media - News, https://www.youtube.com/watch?v=HENOAiJ9yfM 28.03.2026 (baxılıb: 29 mart 2026-cı il)

mövzular qabardılıb. R.Köçəryan bildirib ki, geri qayıtmaq üçün ilk növbədə bu hüququ beynəlxalq məkanda hüquqi cəhətdən təsdiq etmək lazımdır. O, eyni zamanda İkinci Qarabağ müharibəsi və ondan sonrakı məğlubiyyətlərdə Rusiyanın heç bir günahı olmadığını açıq şəkildə müdafiə edərək, baş vermiş bütün fəlakətlərin günahının yalnız hazırkı Ermənistan hakimiyyətində olduğunu əhaliyə inandırmağa çalışıb.

Paralel olaraq, “Ermənistan” blokunun genişlənməsi prosesi davam edib. Belə ki, 2025-ci ilin noyabrında Vağarşapatda keçirilən yerli seçkilərdə ikinci yeri tutmuş “İrəli” partiyası bloka qoşulduğunu rəsmi olaraq açıqlayıb və nəticədə, blokdakı partiyaların sayı üçə çatıb.[3] Beləliklə, “Ermənistan” bloku parlamentə daxil olmaq üçün qanunvericiləyə[4] əsasən ən azı 10% səs toplamalı olacaq. Bu gediş onu deməyə əsas verir ki, R.Köçəryan və onun komandası seçkilərdə 10%-lik baryeri keçəcəyinə inanır.

Müxalifətin digər ən güclü qanadını təmsil edən “Güclü Ermənistan” partiyası isə mart ayı ərzində həm təhlükəsizlik platformasını ictimaiyyətə təqdim edib,[5] həm də regionlara aktiv səfərləri və yeni ofislərinin kütləvi açılışı prosesini davam etdirib. Təhlükəsizlik platformasının rəsmi təqdimatı zamanı partiya rəhbərliyi İsrail Müdafiə Ordusunun Hava Hücumundan Müdafiə Qüvvələrinin sabiq komandanı general-mayor Zvika Xaymoviçi, Yunanıstan XTQ-nin keçmiş əməkdaşı Eftimis Turdisi və Ermənistan cəmiyyətində “əfsanəvi kəşfiyyatçı” kimi tanınan, ehtiyatda olan polkovnik Artur Avanesyanı dəvət edib. Habelə, təhlükəsizlik üzrə fəaliyyət göstərən Niderlandın “Dyami Security” kəşfiyyat və Yunanıstanın “DRCS” şirkətləri ilə əməkdaşlıq memorandumu imzalanıb.[6] İmzalanma mərasimi Cermukda təşkil edilən beynəlxalq təhlükəsizlik konfransı zamanı baş tutub və bütün bu fəaliyyətlər elektoratın cəlbinə istiqamətlənib.[7]

Həmçinin, partiya rəhbərliyi Loru vilayətinə, eləcə də Vanadzor, Gorus, Sisian və digər rayonlara kütləvi səfərlər edərək, xüsusilə, iqtisadi dirçəliş platforması ətrafında cəmiyyəti məlumatlandırıb. Armavir və Qavarda partiyanın növbəti yeni ofisləri istifadəyə verilib. Qeyd edək ki, partiyanın bu fəallığının hakimiyyəti narahat etdiyi və administrativ yollarla bunun qarşısını almağa çalışdığı vurğulanıb. Belə ki, partiya tərəfdarlarının verdiyi məlumata əsasən, hüquq-mühafizə orqanları mütəmadi olaraq

---

[3] Hraparak.am, “İrəli” Partiyası “Ermənistan” blokuna qoşulur” («Առաջ» կուսակցությունը միացել է «Հայաստան» դաշինքին) 16 mart 2026-cı il https://hraparak.am/am/post/e12e3866dc00de3a7626332d17f89fcf (baxılıb: 17 mart 2026-cı il)

[4] Newsarmenia.am, “MSK rəhbəri: Ermənistanda parlament seçkiləri üçün limit partiyalar üçün aşağı salınıb, bloklar üçün isə qaldırılıb.” (В Армении проходной порог в парламент снизили для партий и повысили для блоков - глава ЦИК) 11 mart 2026-cı il https://newsarmenia.am/news/armenia/v-armenii-prokhodnoy-porog-v-parlament-snizili-dlya-partiy-i-povysili-dlya-blokov-glava-tsik/ (baxılıb: 17 mart 2026-cı il)

[5] ““Güclü Ermənistan” təhlükəsizlik proqramını təqdim edir” (“Ուժեղ Հայաստանը” ներկայացնում է անվտանգության ծրագիրը), ABC Media, https://www.youtube.com/watch?v=KMdaclZY4PY 18.03.2026 (baxılıb: 19 mart 2026-cı il)

[6] News.am, ““Güclü Ermənistan” “DRCS” və “Dyami Security Intelligence” ilə memorandumlar imzaladı” (“Сильная Армения” подписала меморандумы “DRCS” и “Dyami Security Intelligence”), 25 mart 2026-cı il, https://news.am/rus/news/938806.html (baxılıb: 25 mart 2026-cı il)

[7] ““Güclü Ermənistan” Partiyasının təşəbbüsü ilə təşkil edilmiş “Cermuk-2026” Beynəlxalq Təhlükəsizlik Konfransı” (“Ուժեղ Հայաստան” կուսակցության նախաձեռնած “Ջերմուկ-2026” անվտանգության միջազգային համաժողով), Armenia Today, https://www.youtube.com/watch?v=m6PSRXXbC2I 25.03.2026 (baxılıb: 25 mart 2026-cı il)

partiyaya məxsus avtobusları qəsdən dayandıraraq yoxlamalara məruz qoyublar.[8] Bununla yanaşı, səfərlərin birində N.Karapetyan bildirib ki, partiya blok formatında seçkiyə getməyə hazırdır.[9] Davamında isə martın 31-də dörd siyasi qüvvə “Güclü Ermənistan” blokuna qoşulub. Bunlar “Sabitlik”, “Ermənistan Liberal Demokrat İttifaqı”, “Yeni Dövr” və “Birləşmiş Ermənilər” siyasi partiyalarıdır.[10] Beləliklə, “Güclü Ermənistan” blokuna 5 partiya daxil olmuşdur. Qeyd edək ki, “Güclü Ermənistan” partiyasının da blok formatında seçkiyə getmək barədə qərarı onu deməyə əsas verir ki, partiyanın 8% (iki partiyalı blok), yaxud 10%-lik (üç və daha çox partiyalı blok) baryeri keçəcəyinə inamı tamdır. Lakin qeyd edək ki, partiyanın cəhdlərinə baxmayaraq, görünür, Ermənistan cəmiyyətində istənilən elektoratı formalaşdıra bilmir. Belə ki, mart ayının 9-da “Qazprom Armenia” QSC-nin əməkdaşlarının Taşır şəhərində vətəndaşlara təzyiq göstərərək “Öz yolumuzla” hərəkatının ofisinə gəlməyə və partiyaya qeydiyyata düşməyə məcbur etməsi kimi hallar ifşa olunub. Bununla bağlı İstintaq Komitəsinin Loru idarəsində cinayət işi də qaldırılıb. İstisna edilmir ki, bu eyni zamanda, iqtidarın partiyanı yarışdan tamamilə kənarlaşdırmaq üçün qurduğu işdir.[11] Belə ki, bu ehtimala qarşı “Güclü Ermənistan” rəsmisi Qohar Meloyan çıxış edərək bildirib ki, istənilən qeyri-qanuni maneə (əvvəlcədən qeydiyyata almamaq və ya son gün ləğv etmək) bütövlükdə dövlətin seçki prosesinin legitimliyini şübhə altına alacaq.[12] Beləliklə, bu nəticəyə gəlmək olar ki, partiya fərqli formatlarda (başqa partiyaya səs çağırışı və s.) olsa da, istənilən halda siyasi yarışda öz sözünü deməyə çalışacaq.

“Güclü Ermənistan” partiyasına həm sabiq prezident Levon Ter-Petrosyan [13] tərəfindən (“müxalifəti birləşdirə biləcək yeganə şəxs Samvel Karapetyandır” fikri ilə), həm də kəskin xəttin təmsilçisi olan Ara Papyan tərəfindən açıq dəstək ifadə olunması xüsusi maraq doğurub. Papyan, hətta S.Karapetyanın kapitalının cəmi 52%-nin Rusiyada olduğunu əsas gətirərək onu müdafiə edib. Papyan əlavə edib ki, Paşinyan

---

[8] Yerevan.today.ru, “Hüquq-mühafizə orqanlarının əməkdaşları qəsdən “Güclü Ermənistan” partiyasının avtobuslarını saxlayırlar.” (Правоохранители намеренно останавливают автобусы партии “Сильная Армения”), 22 mart 2026-cı il, https://yerevan.today/ru/pravoohraniteli-namerenno-ostanavlivayut-avtobusy-partii-silnaya-armeniya/ (baxılıb: 24 mart 2026-cı il)

[9] News.am, “Narek Karapetyan “Samvel Karapetyanla Güclü Ermənistan” blok formatı ilə seçkilərdə iştirak edəcəyini açıqladı” (Նարեկ Կարապետյանը հայտարարեց ընտրություններին դաշինքով մասնակցելու մասին` “Ուժեղ Հայաստան Սամվել Կարապետյանի հետ”), 28 mart 2026-cı il, https://news.am/arm/news/939508.html (baxılıb: 28 mart 2026-cı il)

[10] Armenianreport.com, “Sabitlik” partiyası “Samvel Karapetyanla Güclü Ermənistan” blokuna qoşuldu.” (Партия «Стабильность» присоединилась к блоку «Сильная Армения с Самвелом Карапетяном»), 04 aprel 2026-cı il, https://armenianreport.com/ru/pubs/440213/ (baxılıb: 05 aprel 2026-cı il)

[11] Armtimes.com, “Məni “Öz yolumuzla” hərəkətinin üzvü kimi qeydiyyatdan keçməyə, 2026-cı ildə onların namizədinə səs verməyə məcbur etdilər, əks halda evimi partlatmaqla hədələdilər.” (Հարկադրել են հաշվառվել “Մեր ձևով”-ի անդամ, 2026-ին ընտրել իրենց թեկնածուին, եթե ոչ, սպառնացել պայթեցնել տունը), 16 mart 2026-cı il, https://www.armtimes.com/hy/article/333048 (baxılıb: 20 mart 2026-cı il)

[12] Aysor.am, “Hakimiyyət seçki prosesində süni maneələr yaratmağa çalışarsa, necə cavab verəcəyimizi bilirik - Qohar Meloyan” (Мы знаем, как реагировать, если власть попытается создать искусственные препятствия в избирательном процессе - Гоар Мелоян), 13 mart 2026-cı il https://www.aysor.am/ru/news/2026/03/13/%D0%A1%D0%B8%D0%BB%D1%8C%D0%BD%D0%B0%D1%8F+%D0%90%D1%80%D0%BC%D0%B5%D0%BD%D0%B8%D1%8F/2418272 (baxılıb: 18 mart 2026-cı il)

[13] Aysor.am, “Samvel Karapetyanın qələbəsi halında, Kilsəyə qarşı başlanan konstitusiyaya zidd və xəyanətkar kampaniya aradan qalxacaq və bu da bütün ermənilərin birliyini bərpa edəcək. Ter-Petrosyan” (Սամվել Կարապետյանի հաղթանակի դեպքում կվերանա Եկեղեցու դեմ սանձազերծված հակասահմանադրական և ազգադավ արշավը, ինչը կվերականգնի ողջ հայության միաբանությունը. Տեր-Պետրոսյան), 02 mart 2026-cı il https://www.aysor.am/am/news/2026/03/02/%D5%BF%D5%A5%D6%80-%D5%BA%D5%A5%D5%BF%D6%80%D5%B8%D5%BD%D5%B5%D5%A1%D5%B6/2417441 (baxılıb: 05 mart 2026-cı il)

və Karapetyan arasında seçim etmək imkanı olsa, o, Samvel Karapetyanı seçərdi.[14] Raffi Hovhannisyanın "İrs" partiyası isə seçkilərdə iştirak etməyəcəyini bildirib və tərəfdarlarını "Güclü Ermənistan" blokunu dəstəkləməyə çağırib. Qeyd edək ki, həmçinin partiya ətrafında Vanadzorun keçmiş meri Mamikon Aslanyan, hüquq elmləri namizədi, dosent Armen Yezekyan və Konstitusiya Məhkəməsinin Aparatının keçmiş rəhbəri Edqar Ğazaryan kimi şəxslərin toplaşması partiyanın nüfuz dairəsinin getdikcə genişləndiyini və cəmiyyətdə güclü təsir vasitəsinə çevrildiyini təsdiq edir.

Bununla bərabər, Rusiya xəttini dəstəkləyən Qaqik Tsarukyan özünün "Ermənistanın təklifi" siyasi proqramı çərçivəsində gərgin işə davam etmiş və "Birlikdə" alternativ hərəkatı[15], eləcə də, "Yeni Layihə: İqtisadi Dalğa" təşəbbüsü[16] tərəfindən tam dəstək almışdır. Xüsusilə, Gümrüdə müxalifətə qələbə qazandırmış parlamentin "Şərəfim var" fraksiyasından deputat Martun Qriqoryanın Qaqik Tsarukyanın partiyasından seçkiyə qatılacağını elan etməsi bu cəbhənin ciddi şəkildə genişlənməsinə şərait yaradib.[17] Q.Tsarukyan cəbhəsinin genişlənməsi hakimiyyət qanadında narahatlığa səbəb olub. Belə ki, ona qarşı altı il davam edən məhkəmə prosesi nəticəsində onun bəraət almasına baxmayaraq, hakimiyyətin 2018-ci il seçki kampaniyasında dövlət vəsaitlərinin partiyalar arasında qeyri-mütənasib bölüşdürülməsi ilə bağlı yeni cinayət işi açmaq üçün hazırlıq gördüyü bildirilmişdir.[18] Qeyd edək ki, ay ərzində Q.Tsarukyan digər müxalif partiya nümayəndələri kimi regionlara səfərlər edərək gənclərlə görüşlər keçirib və elektoratın cəlb edilməsi istiqamətində fəal iş aparıb.

Bundan başqa, rusiyapərəst QHT-lərin seçkiyə dəstək məqsədilə səylərini birləşdirmək istiqamətində addımlar atdığı müşahidə edilib. Belə ki, "Ümumermәni İctimai Birliyi", "Alternativ Layihə Qrupları" və "Körpü" təşkilatları ilə memorandum imzalanıb.[19] Tərəflər səylərini Ermənistanın və diasporun potensialını birləşdirməyə,

---

[14] "Samvel Karapetyan hakimiyyətə gəlib və Rusiyayönlü siyasət yürüdəndə, deyərik ki, o, Rusiyayönlüdür." (Սամվել Կարապետյանը երբ որ կգա իշխանության և ռուսամետ քաղաքականություն կիրականացնի,կասենք՝ ռուսամետ է), Factor.Tv, https://www.youtube.com/watch?v=C4wYcL1lPwI&t=422s 19.03.2026 (baxılıb: 19 mart 2026-cı il)

[15] Armlife.am, ""Birlikdə" alternativ sosial-siyasi hərəkat "Ermənistana Təklif" layihəsini tam dəstəklədiyini bildirir. Biz Tsarukyanın geniş ictimai səfərbərliyə yönəlmiş səylərini yüksək qiymətləndiririk." («Միասին» այլընտրանքային հասարակական-քաղաքական շարժումն իր լիակատար աջակցությունն է հայտնում «Առաջարկ Հայաստանին» նախագծին. բարձր ենք գնահատում Ծառուկյանի՝ հանրային լայն համախմբմանն ուղղված ջանքեր), 27 fevral 2026-cı il, https://armlife.am/miasin-aylyntranqayin-hasarakakan-qaghaqakan-sharzhumn-ir-liakatar-ajakcutyunn-e-haytnum-arrajark-hayastanin-naxagcin%e2%80%a4-barjr-enq-gnahatum-carrukyani%d5%9d-hanrayin- (baxılıb: 05 mart 2026-cı il) lay/?fbclid=IwY2xjawRESDRleHRuA2FlbQIxMABicmlkETEzN1diellLMTRWUno5QmFSc3J0YwZhcHBfaWQQMjIyMDM5MTc4ODIwMDg5MgABHoW6nBEP33eW9k3RkMYzPuKqaZeJ00tQm79N2R-nTX5JwjlFcbzWXz2VNqmh_aem_m9KvTJI7BP_RS0a9La--VA

[16] Panorama.am ""Yeni Layihə: İqtisadi Dalğa" Qaqik Tsarukyanın təşəbbüsü ilə yaradılmış "Ermənistana Təklif" proqramına qoşulur" ("Նոր պրոյեկտ. Տնտեսական ալիք" նախաձեռնությունը միանում է Գագիկ Ծառուկյանի նախաձեռնությամբ ձևավորված «Առաջարկ Հայաստանին» ծրագրին), 13 mart 2026-cı il, https://www.panorama.am/am/news/2026/03/13/%D5%86%D5%B8%D6%80-%D5%BA%D6%80%D5%B8%D5%B5%D5%A5%D5%AF%D5%BF/3154095 (baxılıb: 19 mart 2026-cı il)

[17] Aysor.am, "Biz Qaqik Tsarukyanın rəhbərlik etdiyi "Çiçəklənən Ermənistan" partiyasını "Ermənistana təklif" proqramı ilə parlament seçkilərində iştirak edəcəyik. Qriqoryan" (Մասնակցելու ենք ԱԺ ընտրություններին ԲՀԿ-ի «Առաջարկ Հայաստանին» ծրագրով՝ Գագիկ Ծառուկյանի գլխավորությամբ. Գրիգորյան), 05 mart, 2026-cı il, https://www.aysor.am/am/news/2026/03/05/%D4%B3%D6%80%D5%AB%D5%A3%D5%B8%D6%80%D5%B5%D5%A1%D5%B6/2417686 (baxılıb: 07 mart 2026-cı il)

[18] Hraparak.am, "Tsarukyana qarşı yeni proses" (Новый процесс в отношении Царукяна), 25 mart 2026-cı il, https://hraparak.am/ru/post/3732c73437858da0985b2f4d6001e2f8 (baxılıb: 27 mart 2026-cı il)

[19] ""Körpü" təşəbbüsü və "Ümumermәni İctimai Alyansı" memorandum imzaladılar" ("Կամուրջ" նախաձեռնությունն ու Համահայկական հասարակական դաշինքը հուշագիր են ստորագրել), Kentron Channel, https://www.youtube.com/watch?v=O2W0WzilGLE 09.03.2026 (baxılıb: 10 mart 2026-cı il)

Aysor.am, ""Alternativ Layihələr" qrupu və "Ümumermәni İctimai Alyansı" memorandum imzaladılar" ("Այլընտրանքային նախագծեր" խումբն ու Համահայկական հասարակական դաշինքը հուշագիր են ստորագրել), 11 mart 2026-cı il https://www.aysor.am/am/news/2026/03/11/%D5%B0%D5%B8%D6%82%D5%B7%D5%A1%D5%A3%D5%AB%D6%80/2418120 (baxılıb: 15 mart 2026-cı il)

milli maraqları qorumağa və aydın mövqeyə malik vətəndaş cəmiyyəti formalaşdırmağa yönəldəcəklərini bildiriblər.

Eyni zamanda, ABŞ-də sürgün həyatı yaşayan və hazırda Henderson həbsxanasında olan Vardan Ğukasyanın rəhbəri olduğu “Demokratiya, Qanun, Nizam” (“DOK” adlanır)[20], İrəvanın keçmiş meri Hayk Marutyanın “Yeni Güc”[21] və Suren Petrosyanın “Demokratik Həmrəylik”[22] partiyaları seçkidə iştirak edəcəklərini açıqlayıblar. Qeyd edək ki, H.Marutyan daha əvvəl hakim partiyanın üzvü olub, lakin sonra müəyyən səbəblərə görə onlara müxalif mövqe tutmağa başlayıb. Onun 2023-cü ildə İrəvan şəhəri uğrunda gedən seçki mübarizəsində namizəd olduğu “Milli Konqres” partiyası təqribən 19% səs toplayaraq ikinci olub. Buna baxmayaraq, Marutyanın seçkiyə ciddi təsir göstərəcəyi ehtimalı azdır. Belə ki, onun həm partiyası yenidir, həm də seçki mübarizəsinə gec qoşulub və imkanları məhduddur. Partiyanın hakimiyyətə yaxın olduğu və seçkiyə səslərin parçalanması üçün daxil olacağı ehtimalı edilir. Suren Petrosyan da oxşar formada qiymətləndirilir. Belə ki, o, əvvəl “Müqəddəs mübarizə” hərəkatının əsas dəstəkçilərindən biri olub, lakin daha sonra bu dəstəyindən imtina edib. Bu səbəbdən, Petrosyan hər nə qədər özünü ictimaiyyətə müxalif güc kimi təqdim etsə də, hərəkatdan imtina etdikdən sonra onun nüfuzu kifayət qədər aşağı düşüb. Çünki hərəkatdan imtina etdikdən sonra Ermənistan mətbuatında onun, hətta hakimiyyətin adamı olması ilə bağlı xəbərlər yayılmışdı. S.Petrosyanın rusiyapərəst qanadla eyni cəbhədə yer almayacağı ehtimalı yüksək qiymətləndirilir.

## Hakimiyyətin fəaliyyəti

Mart ayında hakim partiyanın fəaliyyəti də son dərəcə intensiv xarakter aldı. Baş nazir N.Paşinyan rəsmi şəkildə namizədliyini irəli sürüb, partiyanın seçilmiş ilk 50 üzvü ilə birlikdə regional kampaniyaya başlayıb, Armavir, Şirak, Ararat, Qeğarkunik, Araqatsotn və Loru vilayətlərini gəzərək beş ildə görülən işləri təqdim etməyə çalışıb. Lakin regionlarda cəmiyyətin iqtidara münasibəti kəskin fərqlənib. Məsələn, Qeğarkunikdə isti münasibət görən hakimiyyət üzvləri, Loru vilayətində olduqca soyuq və aqressiv qarşılanəb.[23] İstisna edilmir ki, mənfi reaksiya göstərən bəzi şəxslər müxalifət tərəfindən məqsədli olaraq təlimatlandırılıb. Belə ki, görüşlər zamanı vətəndaşlar başda N.Paşinyan olmaqla, digər hakimiyyət üzvlərini Qarabağı Azərbaycan rəhbərliyinə “satmaqda” və hətta Paşinyanı ölkə xaricində malikanələr almaqda ittiham edib. Nəticədə isə hakimiyyət üzvləri ilə vətəndaşlar arasında xoş olmayan mübahisələr yaşanmış və müxalifət media resursları bunu təbliğat üçün istifadə etmişdir. Digər tərəfdən, Baş nazir Paşinyanın sadə vətəndaşlarla söhbəti

[20] Hraparak.am, “Vardan Qukasyan (“DOK”) - baş nazirliyə namizəddir” (Вардан Гукасян (“Дог”) - кандидат в премьер-министры), 28 fevral 2026-cı il, https://hraparak.am/am/post/1729a100b8558730c67318b5a419fbad (baxılıb: 01 mart 2026-cı il)

[21] Newsarmenia.am, “”Yeni Güc” partiyası baş nazir vəzifəsinə namizədini açıqlayıb.” (Партия "Новая сила" назвала кандидата в премьеры), 21 mart 2026-cı il https://newsarmenia.am/news/politics/partiya-novaya-sila-nazvala-kandidata-v-premery/ (baxılıb: 23 mart 2026-cı il)

[22] Hraparak.am, “Digər qüvvələrə qoşulmaq mümkün deyil; biz müstəqil şəkildə iştirak edəcəyik.” (Присоединение к другим силам исключено, будем участвовать самостоятельно), 17 mart 2026-cı il, https://hraparak.am/ru/post/7481c7a629422fba29d9ad3e9536d335

[23] https://hraparak.am/ru/post/e7d593c72110aa122f7e2b2978fdad4b (baxılıb: 21 mart 2026-cı il)

zamanı əksər sakinlərin bəzi məsələlərə dair real narazılıq bildirməsi onu deməyə əsas verir ki, əhali arasında hazırkı hakimiyyətin reytinqi o qədər də yüksək deyil.

Ümumilikdə, hakimiyyətin reytinqinə daxili siyasətlə yanaşı, xarici böhranlara verilən qeyri-adekvat reaksiyalar da mənfi təsirini göstərib. İranda baş verən gərginlik və ali rəhbərliyin öldürülməsi fonunda Ermənistan hökumətinin başsağlığını yubatması, bunun əvəzinə rəsmilərin qarğıdalı və "peraşki" yeməsi, N.Paşinyanın qonşu Gürcüstanda əylənərək zərb alətlərində ifa etməsi, daha sonra metroda yerli Qarabağ ermənisi ilə küçə davası səviyyəsində mübahisə edərək ardınca üzr istəməsi cəmiyyətdə iqtidara qarşı güclü ikrah hissi və etiraz doğurdu. Qeyd edək ki, xüsusilə Qarabağ erməniləri ilə bağlı Paşinyanın son açıqlamaları bəzi vətəndaş cəmiyyətləri, hətta hakimiyyətə müəyyən qədər yaxın olanlar tərəfindən qınanmışdır.[24] Onlar birgə bəyanatla çıxış edərək baş verənlərə etirazını bildirdilər. Hətta iqtidar daxilində çalışan bəzi məmurlar arasında ölkənin "ciddi bir liderə ehtiyac duyduğu" fikrinin formalaşması ilə bağlı mediada məlumatlar yayıldı.[25] Nəticədə qeyd etmək lazımdır ki, hakim partiyanın regionlara səfəri daha çox mənfi təəssüratlarla yadda qaldı, bu da hakimiyyətin reytinqinə mənfi təsir göstərdi.

Mart ayında hakimiyyətin sülh təbliğatı müxalifət tərəfindən əks təbliğatla qarşılandı. Müxalifət nümayəndələri xalqa məhz hazırkı iqtidarın hakimiyyəti illərində ölkənin artıq üç müharibəyə sürükləndiyini davamlı xatırladıb. Habelə bu, ictimaiyyətə "müharibə ilə qorxutmaq vasitəsilə hakimiyyətin seçkiyə təsir etməyə çalışdığı" kimi təqdim edilib. Üstəlik, hakim partiya daxilində bəzi problemlərin yaşandığı iddia olunub.[26] Bildirilib ki, partiya daxilində baş tutan seçkilər zamanı ədalətsizlik və manipulyasiyaya yol verilib. Məsələ bundadır ki, hakim partiyanın bəzi üzvlərinin partiya daxilində keçirilən seçkilərdən sonra aldığı səslər o qədər şübhəli olub ki, onlar məsələni partiyanın administrasiyası ilə müzakirə etmək məcburiyyətində qalıb. Müəyyən edilib ki, hakim partiyanın üzvü, keçmiş millət vəkili Karen Qriqoryan ilk 50 namizəd arasında keçdiyini iddia edib və seçki nəticələrindən narazı qalıb. Bu hadisə partiya daxilində müəyyən narazılıqların olduğunu ortaya qoymuşdur.

Baş verən proseslərlə yanaşı, hakimiyyət inzibati resurslardan istifadə etməyə davam etmişdir. Belə ki, aprel ayının 1-dən pensiyaların 10 min dram artırılacağı barədə qərar qəbul edilib, eləcə də Əmək və Əhalinin Sosial Təminatı Nazirliyinin işçilərinin maaşlarının 30% artırılacağı bildirilib. Mediada hakimiyyətin tapşırığı ilə bəzi yaşayış məntəqələrində məişət problemi olan şəxslərlə əlaqə yaradıldığı, onların siyahısının tərtib olunduğu və onlara yardım göstəriləcəyi ilə bağlı məlumatlar yayılmışdır.[27]

[24] Factor.am, "Ermənistan Vətəndaş Cəmiyyətinin Baş nazirin Uyğunsuz Davranış və Ritorikası ilə Bağlı Bəyanatı" (Statement of Armenian Civil Society on Inappropriate Conduct and Rhetoric by the Prime Minister), 24 mart 2026-cı il, https://factor.am/en/8591.html (baxılıb: 27 mart 2026-cı il)

[25] Hraparak.am, "Bonuslar və peraşkilər Paşinyanın reytinqini xilas etmir: Dövlət qulluqçuları baş nazirin PR hərəkətlərini lağa qoyurlar" (Премии и пирожки не спасают рейтинг Пашиняна: госслужащие высмеивают пиар-акции премьера), 20 mart 2026-cı il https://hraparak.am/ru/post/a45f25c19980591930818685133a52bf (baxılıb: 24 mart 2026-cı il)

[26] Yerevan.today "50 nəfərlik siyahıdan saxtakar çıxarıldı." (50-ի ցանկից զեղծարար ՔՊ-ականի են հեռացրել.), 04 mart 2026-cı il, https://yerevan.today/50-i-cankic-zeghtcarar-khp-akani-en-heracrel-hraparak/ (baxılıb: 10 mart 2026-cı il)

[27] Hraparak.am, "Gülnaz nənənin nağıllarına inanmayın" (Не верьте сказкам бабушки Гюльназ), 19 mart 2026-cı il, https://hraparak.am/ru/post/1b0c24248460b5ef7d0e01867f5b5fb5 (baxılıb: 24 mart 2026-cı il)

Hakim partiyanın üzvləri isə gənclərə seçki kampaniyasında fəal iştirakı müqabilində parlamentdə iş təklif etdiyi iddia olunmuşdur.[28] Lakin bu, pensiya artımı müxalifət tərəfindən ciddi əks təbliğatla qarşılandı. Belə ki, müxalifət nümayəndələri, Paşinyanın 2025-ci ilin noyabr ayında pensiyanın artırılmayacağı barədə açıqlamalarını misal olaraq gətirmişdir. Paralel olaraq, həmin miqdarın yüksək olmadığını təbliğ etməyə başlamışlar.

Hakimiyyətin alternativ və mülayim müxalifət formalaşdırmağa çalışdığı müəyyən edilmişdir. Belə ki, mediada Aram Sarqsyanın "Respublika", Qurqen Simonyanın "Meritokratik" və Arman Babacanyanın "Respublika Naminə" partiyalarının vahid blok olaraq seçkiyə daxil olacaqlarına dair xəbərlər yayılmışdır.[29] Xəbərdə iddia olunub ki, belə gediş fərqli mənzərə ortaya qoya bilər. Belə ki, hər kəs hakim partiyanın xeyrinə saxtakarlıq və rəqəmlərin manipulyasiyasını gözləsə də, rejim qərbyönümlü partiyalarla bunu həyata keçirə, onlardan konstitusiya çoxluğunu təmin etmək və hakimiyyəti qorumaq üçün istifadə edə bilər. Belə bir blokun yaradılacağı istisna edilmir. Bununla yanaşı, hakim partiya elektoratı təmin etmək məqsədilə milli azlıqların nümayəndələrinin daxil olduğu seçki siyahısının ikinci hissəsinin formalaşdırılmasını başa çatdırmışdır. Məlumatlara görə, partiya Assuriya, Yezidi, Rus və Kürd icmalarından nümayəndələri nəzərdən keçirib. Qeyd edək ki, mövcud qanunvericiliyə əsasən, ən çox səs toplayan siyasi partiya ən böyük icma olan Yezidi icmasını təmsil edən mandat alır. Əgər partiya ikiqat çox yer alırsa, o, həmçinin Rus icmasını təmsil edən mandat alır. Lakin Konstitusiya çoxluğunu təmin edərsə, hər üç icmanın nümayəndələrini parlamentə seçə bilər.[30]

Hakimiyyətə yaxın ekspert və vətəndaş cəmiyyəti nümayəndələrinin bəzi qüvvələrin seçkidə iştirakının qarşısını almaq üçün fəal təbliğat aparmaqla yanaşı, bəzi təkliflərlə çıxış etməyə başladıqları müşahidə olunmuşdur. Belə ki, mart ayında "Seçki Məcəlləsi demokratik seçkiləri yaxşı təmin etməsinə nə mane olur?" mövzusunda müzakirə təşkil edilmişdir. Həmin tədbirdə çıxış edən "Transparency International" Antikorrupsiya Mərkəzinin direktoru Sona Ayvazyan bildirib ki, seçkilərin maliyyələşdirilməsi ilə bağlı məlumatlar gec təqdim olunur, həmçinin xarici müdaxilə və qanunsuz vəsaitlər səbəbindən risklər mövcuddur. "Məlumatlı Vətəndaşlar Birliyi" təşkilatının sədri Daniyel İonnisyan qeyd edib ki, onun müşahidələrinə görə, maliyyələşdirmə qaydalarını pozan tərəflər var və seçkiyə xarici müdaxilə artır. Ermənistanın Mərkəzi Seçki Komitəsinin katibi Armen Smbatyan isə vurğulayıb ki, xərclər fondlar vasitəsilə idarə olunsa da, qanunda hələ də boşluqlar mövcuddur. O, əlavə edib ki, hər hansı hüquqi şəxsin seçki kampaniyası zamanı ianə etməsi, məsələn, pulsuz yer və ya əmlakla təmin etməsi partiyanın maliyyələşdirilməsi qaydalarını

[28] İravunk.com, ""Mülki Müqavilə"nin üzvləri gəncləri necə "verbovka" edirlər" (Ինչպե՞ս են ՔՊ–ականները "վերբովկա" անում երիտասարդներին), 04 mart 2026-cı il, https://iravunk.com/?p=335611&l=am (baxılıb: 09 mart 2026-cı il)

[29] Hraparak.am, "Hakim partiya özünü sığortalamağa çalışır" (ՔՊ-ն փորձում է իրեն ապահովագրել), 17 mart 2026-cı il https://hraparak.am/am/post/44d005a4548f24280a810bf6e7856cb0 (baxılıb: 18 mart 2026-cı il)

[30] News.am, ""Mülki Müqavilə"nin seçki siyahısının ikinci hissəsi hazırdır" (Вторая часть предвыборного списка "ГД" готова), 27 fevral 2026-cı il https://news.am/rus/news/932669.html (baxılıb: 02 mart 2026-cı il)

pozur, hazırda Komitə bu məsələ ətrafında iş aparır və bu, qurumun diqqət mərkəzindədir.[31]

### Keçirilmiş sosial sorğuların nəticələri

Mart ayında keçirilmiş bəzi sosial sorğuların nəticələri vəziyyətin hakimiyyətin lehinə olduğunu göstərsə də, bəziləri bunun əksini nümayiş etdirib. Həmçinin, Ermənistan mətbuatında yayılan xəbərlərdə qeyd olunmuşdur ki, aktiv PR kampaniyasına və ABŞ vitse-prezidenti C.D.Vens kimi yüksək vəzifəli şəxsin səfərinə baxmayaraq, sosial sorğuların nəticələri hakim partiyanın reytinqinin ciddi artmadığını göstərir.

"Ermənistan Seçki Sisteminin Tədqiqi Mərkəzi"nin 22 fevral tarixində keçirdiyi sosial sorğuda respondentlərin 36% baş nazirinin fəaliyyətini müsbət, 45% isə mənfi qiymətləndirmişdir. Bununla yanaşı, "Güclü Ermənistan" partiyasının "Ermənistan" bloku seçicilərinin bir hissəsini öz tərəfinə cəlb etdiyi bildirilmişdir. Şəxsi baxışlarından asılı olmayaraq, ermənilərin əksəriyyətinin hakim partiyanın qalib gələcəyinə inanmışdır. Bu sorğunun nəticələrinə görə, hakim partiya 26,1%, "Güclü Ermənistan" 11,9%, "Çiçəklənən Ermənistan" 6% səs toplayacaq, digər partiyalar isə 4%-lik baryeri keçə bilməyəcək.[32]

Beynəlxalq Respublika İnstitutunun (IRI) Sosioloji Tədqiqatlar Mərkəzinin "Breavis" şirkəti ilə birgə 3-13 fevral tarixləri arasında keçirdiyi sosial sorğunun nəticələri də hakim partiyanın qalib gələcəyini göstərmişdir. Belə ki, sorğunun nəticələrinə görə, hakim partiya 24%, "Güclü Ermənistan" 9%, "Ermənistan" bloku və "Çiçəklənən Ermənistan" hər biri 3% səs toplayacaq. Sorğuya əsasən, Paşinyanın reytinqi 18%, Karapetyanın 6%, Köçəryan və Tsarukyanın isə 3% təşkil etmişdir. Qeyd edək ki, respondentlərin 48% heç bir siyasi fiqura etibar etmədiklərini bildirmişdir. 56 yaşdan yuxarı respondentlərin 32%-i Paşinyana inamını ifadə etmişdir.[33]

Lakin müxalifət qüvvələri yuxarıda qeyd edilən sorğunun nəticələri ilə razılaşmamış və bu sorğuların qərəzli aparıldığını iddia etmişlər. Bunun nəticəsində isə "Güclü Ermənistan" partiyası özü sosial sorğunun keçirilməsini sifariş vermişdir. Belə ki, tədqiqat və konsaltinq şirkəti "Empirica" tərəfindən aparılmış sorğuda "növbəti baş nazir iki namizəddən hansı olacaq?" sualına ölkə üzrə respondentlərin 35%-i Karapetyanı, 34%-i isə Paşinyanı seçmişdir. İrəvanda nəticələr daha da qabarıq olmuşdur. Burada Samvel Karapetyan səslərin 49%-ni, Nikol Paşinyan isə cəmi 24%-ni toplamışdır. Bununla yanaşı, sorğu zamanı hakim partiya səslərin yalnız 28%-ni,

---

[31] Aravot.am, "Seçkilər ərəfəsində çirkli pullar dövriyyədə ola bilər, amma maliyyə detallarına çıxışımız yoxdur: qanunvericilikdə dəyişikliklərə ehtiyac var" ("Ընտրությունների նախաշեմին կարող են կեղտոտ փողեր շրջանառվել, բայց մենք հասանելիություն չունենք ֆինանսական դետալներին. օրենսդրական փոփոխություններ են պետք") 03 mart 2026-cı il, https://www.aravot.am/2026/03/03/1542072/ (baxılıb: 05 mart 2026-cı il)

[32] Factor.am, "Sabah seçkilər olsa, kim seçiləcək: "Mülki Müqavilə" partiyası liderlik edir, "Ermənistan" blokunun əvəzinə "Güclü Ermənistan"" (Ով կընտրվի, եթե վաղն ընտրություն լինի. ՔՊ-ն՝ առաջատար, "Հայաստան"-ի փոխարեն՝ "Ուժեղ Հայաստան"), 04 mart 2026-cı il, https://factor.am/991329.html (baxılıb: 05 mart 2026-cı il)

[33] İri.org, "Ermənistan əhalisinin ictimai rəy sorğusu: Fevral 2026" (Հանրային կարծիքի ուսումնասիրություն. Հայաստանի առկա բնակչություն. Փետրվար 2026), fevral 2026, https://www.iri.org/wp-content/uploads/2026/03/ARM-26-NS-01-PT-V1_Armenian.pdf səh.33, (baxılıb: 05.03.2026-cı il)

müxalifət qüvvələri isə birlikdə 47%-ni toplaya bilmişdir. İrəvanda “Güclü Ermənistan” partiyasına dəstək daha yüksək olmuşdur. Sorğunun nəticələrinə görə, əgər parlament seçkiləri indi keçirilsəydi, İrəvan şəhər seçicilərinin 35% “Güclü Ermənistan”a, 17% isə hakim partiyaya səs verərdi. “Ermənistan” bloku 11%, qalan müxalifət qüvvələri isə 16% səs toplayardı.[34]

Qeyd edək ki, hakimiyyətə yaxın politoloq Robert Ğevondyan öz Facebook səhifəsində yazıb ki, onun fikrincə, hakim partiya birinci yeri tutacaq və çox güman ki, hökuməti formalaşdıracaq. İkinci yerdə səslərin 20-30%-ni “Güclü Ermənistan”, üçüncü yerdə 6-8%-ni “Ermənistan” bloku alacaq. O əlavə edib ki, “Ermənistan” blokunun parlamentə düşüb-düşməməsi alacağı səslərin sayından asılı olacaq. Politoloq dördüncü yerdə isə 5-7% səs toplayacaq “Çiçəklənən Ermənistan” partiyasını görür.[35] Qeyd edək ki, son bir aydır hakimiyyətə yaxın ekspertlərin “Çiçəklənən Ermənistan” partiyasının parlamentə daxil olacağı, “Ermənistan” blokunun isə daxil ola bilməyəcəyi ilə bağlı təbliğat apardıqları müşahidə edilib. Aparılmış sorğuların nəticələri onu deməyə əsas verir ki, hazırda Ermənistanda vəziyyət fors-major olaraq qalır və sorğu nəticələri real vəziyyəti tam əks etdirmir. Bunu da qeyd etmək lazımdır ki, “Gümrü ssenarisi” qüvvədə qalır.

## Nəticə

Mart ayında parlament seçkilərinə hazırlıq prosesi kəskin mərhələyə daxil olaraq intensiv təbliğat kampaniyaları və artan xarici təsir iddiaları fonunda müşayiət olunur. Proseslərin inkişaf dinamikası göstərir ki, həm mövcud iqtidar, həm də müxalifət qüvvələri bütün resurslarını səfərbər edərək həlledici mübarizəyə hazırlaşırlar. Lakin cəmiyyətdəki qeyri-müəyyənlik heç bir tərəfə mütləq qələbə zəmanəti vermir. Sorğularda respondentlərin 48%-nin heç kimə etibar etməməsini də bunun ən bariz nümunəsi hesab etmək olar. Nəticə etibarilə, qeyd etmək olar ki, mübarizə son günə qədər gərgin keçəcək və seçkinin nəticələri ilə bağlı fors-major ssenarilərin reallaşması ehtimalı qalır.

Digər tərəfdən, hakimiyyətin güclənən rəqiblərini neytrallaşdırmaq məqsədilə inzibati resurslardan fəal şəkildə istifadə edəcəyi və “Moldova ssenarisi”ni həyata keçirməyə çalışacağı istisna edilmir. Lakin bu addımın iqtidar üçün istənilən nəticəni verəcəyi ehtimalı azdır. Belə ki, müxalifət qüvvələri bu ssenari barədə məlumatlıdır və hakimiyyətin belə bir addımına qarşı müvafiq hazırlıq gördüyü proqnozlaşdırılır.

**Müəllif: Fuad Abdullayev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

---

[34] News.am, “Yeni sorğuya görə, iyun seçkilərindən sonra Nikol Paşinyan artıq baş nazir olmayacaq.” (Նոր հարցման համաձայն՝ հունիսյան ընտրություններից հետո Նիկոլ Փաշինյանն այլևս վարչապետ չի լինի), 09 mart 2026-cı il https://news.am/arm/news/935115.html (baxılıb: 11 mart 2026-cı il)

[35] Armtimes.com, “Köçəryan risk etməli idi: politoloq səbəbini dedi və proqnozlar verdi” (Քոչարյանը ստիպված էր ռիսկի գնալ. քաղաքագետն ասել է՝ ինչու և կանխատեսումներ ներկայացրել), 16 mart 2026-cı il, https://armtimes.com/hy/article/333073 (baxılıb: 15 mart 2026-cı il)